# GÜNDOĞAR

Qəzet 1931 - ci ildən çap edilir | NEFTÇALA RAYON QƏZETİ | 29 MART 2024 - cü il, № 3(68065)






***ULU ÖNDƏR HEYDƏR ƏLİYEV: "Novruz bayramı Azərbaycan xalqının, azərbaycanlıların ən əziz bayramıdır. Hər xalqın tarix boyu yaranmış və ənənəyə çevrilmiş bayramları vardır. Azərbaycan xalqının da bayramları vardır. Bunların bir qismi dövlət bayramlarıdır, bir qismi xalq, din bayramlarıdır. Bütün bu bayramların içərisində millətimiz üçün, xalqımız üçün, hər bir azərbaycanlı üçün ən əziz, ən doğma, ən sevimli bayram Novruz bayramıdır".***




**Martın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xankəndi şəhərində Novruz tonqalını alovlandırıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev xalqımızı Novruz bayramı münasibətilə təbrik edib.**

***"...Biz iyirmi il torpaqlarımızın azad olunmasına hazırlaşmışdıq. Bir çox istiqamətlər üzrə planlı şəkildə işlər gedirdi. Siyasi müstəvidə dünyada Azərbaycanın mövqeləri möhkəmləndi, dostlarımızın sayı böyük dərəcədə artmışdır. Beynəlxalq təşkilatlar bizim təşəbbüsümüzlə münaqişə ilə bağlı bizim mövqeyimizi dəstəkləyən və beynəlxalq hüquqa əsaslanan qərar və qətnamələr qəbul etmişlər və bu münaqişənin həlli üçün hüquqi və siyasi zəmin yaratmışdır. Biz iqtisadi inkişafa nail olduq, iqtisadi müstəqilliyə nail olduq və bu gün heç kimdən iqtisadi cəhətdən və təbii ki, siyasi cəhətdən asılı deyilik. Güclü iqtisadiyyat bizə imkan verdi ki, siyasi müstəvidə öz siyasətimizi müstəqil şəkildə aparaq. Bu gün Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, onun siyasəti tamamilə müstəqildir, ancaq və ancaq Azərbaycan xalqının maraqlarına, iradəsinə əsaslanır.Təbii ki, əsas vəzifəmiz torpaqlarımızı işğalçılardan azad etmək idi. Bu məqsədlə hərbi gücümüzü artırmaq bizim əsas vəzifəmizdir. Ordumuzun, bütün Silahlı Qüvvələrimizin döyüş qabiliyyəti böyük dərəcədə artmışdır, maddi-texniki təchizat ən yüksək səviyyədə həll olunurdu və İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı bunu bütün dünyaya nümayiş etdirdi. Ən önəmlisi elə bir gənc nəsil yetişdirildi ki, bu gənc nəsil bizim xalqımız üçün əbədi qürur mənbəyi olacaq və bütün dünyaya Azərbaycan xalqının böyüklüyünü nümayiş etdirmişdir. Bizim gənclərimiz vətənpərvərlik ruhunda, milli ruhda yetişdirildi, üç il bundan əvvəl torpaqlarımızı azad etmək üçün ölümə getməyə hazır idilər və ölümə gedirdilər. Bir daha Allah bütün şəhidlərimizə rəhmət eləsin! Fevralın 26-da mən Xocalıda xocalılarla birlikdə Xocalı memorial kompleksinin təməlini qoydum. Burada yerləşmiş, qanunsuz inşa edilmiş şeytan yuvası – dırnaqarası parlament binası və onun yanındakı terror təşkilatının binası fevralın 26-da sökülməyə başladı və yerlə-yeksan edildi. Separatçıların izi-tozu da qalmadı.Novruz tonqalı da son təmizləmə işlərini görür.!..***

***Əziz həmvətənlər, buradan xalqa təbriklərimizi çatdırmaq böyük xoşbəxtlikdir. Biz hamımız İkinci Qarabağ müharibəsindən sonra qürurla yaşayırıq. Biz hamımız fəxr edirik ki, biz özümüz ədaləti bərpa etdik, torpaqlarımızı işğalçılardan azad etdik, öz gücümüzü göstərdik və bundan sonra hər kəs bizimlə hesablaşmalıdır, əks təqdirdə, özü peşman olacaq.***

**Mən bir daha əziz xalqımı qarşıdan gələn bayram münasibətilə ürəkdən təbrik etmək istəyirəm, Azərbaycan xalqına can sağlığı, yeni uğurlar arzulayıram. Qarabağ Azərbaycandır!**

## Neftçala Rayon İcra Hakimiyyətinin Başçısı cənab Mirhəsən Seyidov Novruz bayramı münasibətilə neftçalalıları təbrik edib.

**Hörmətli neftçalalılar və rayonumuzun qonaqları!**

Sizləri xalqımızın qədim bayramı Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə bahar əhval-ruhiyyəsi, can sağlığı və gələcək işlərinizdə uğurlar arzulayıram.

Əsrlərin sınağından uğurla çıxaraq bu günlərə qədər gəlib çıxan və xalqımızın milli adətləri, ənənələrini özündə əks etdirən Novruz bayramı ən əziz və müqəddəs bayram kimi öz gəlişi ilə insanlara sonsuz sevinc gətirir. Novruzun gəlişi ilə təbiət canlanır, torpağa hərarət gəlir, insanların qurub-yaratmaq əzmi artır.

Bu il Novruz bayramını xalqımız daha möhtəşəm qeyd edir, çünki 30 ilə yaxın düşmən işğalında olan torpaqlarımız Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və ordumuzun əzmi ilə düşməndən azad olunub. Azad olunan torpaqlarımızda Novruz bayramı geniş qeyd olunur.

Azərbaycan dövləti müstəqil bir ölkə kimi dünya dövlətləri sırasında öz layiqli yerini tutur, onun iqtisadi qüdrəti hər il güclənir. Bu nailiyyətlərin əsasında Prezident İlham Əliyevin məqsədyönlü və uzaqgörən siyasəti dayanır.

Azərbaycan ikinci dəfə tarixi müstəqilliyini əldə etdikdən sonra xalqımız Novruzu dövlət bayramı kimi təntənə ilə qeyd edir. Ulu Öndər Heydər Əliyevin xalqımız qarşısında əzəmətli xidmətləri sırasında Novruz bayramının yenidən qaytarılması mühüm yer tutur. Belə ki, Ümummilli Liderin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra Novruz bayramının xalqımızın qədim adət-ənənələri ilə qeyd olunmasını, xalqımızın milli dəyərlərini yaşatmasını diqqətə çatdırdı. Ulu Öndər Heydər Əliyev çıxışlarında belə söyləyirdi: ***"Gün o gün olacaq ki, Novruz bayramını bir dəfə Şuşada, o biri il Laçında, o biri il Kəlbəcərdə, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda keçirəcəyik. Əminəm ki, belə də olacaqdır. Mən buna inanıram və bu inamla yaşayıram, bu inamla işləyirəm və bu inamla da Azərbaycan xalqına rəhbərlik edirəm".*** Bu gün Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident cənab İlham Əliyev hər zaman bu adət-ənənələrin davam etdirilməsinə xüsusi diqqət və qayğı göstərir. Ümummilli Lider Heydər Əliyev siyasi məktəbinin layiqli davamçısı, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında xalqımızı daha böyük uğurlar, xoşbəxt gələcək və daha da inkişaf edən Azərbaycan gözləyir.

**Əziz neftçalalılar və rayonumuzun qonaqları!**

**Sizləri Novruz bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə bayram ovqatlı, Novruz təravətli firavan günlər arzulayıram.**

**Novruz bayramınız mübarək olsun!**

**Mirhəsən Seyidov**
**Neftçala Rayon İcra Hakimiyyətinin Başçısı**

## Diqqət və qayğı



29 mart tarixində Əmək və Əhalinin Sosial Müdafiəsi Naziri Sahil Babayev Neftçala rayonunda Neftçala və Salyan rayonlarının sakinlərini qəbul edib. Qəbuldan əvvəl Sahil Babayev və Neftçala Rayon İcra Hakimiyyətinin Başçısı Mirhəsən Seyidov Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət ediblər. Qəbul zamanı vətəndaşlar məşğulluq, mənzil təminatı, əlillik, reabilitasiya vasitələri ilə təminat, ünvanlı sosial yardım və s. məsələlərlə bağlı müraciət ediblər. Müraciət edənlər sırasında şəhid ailələrinin üzvləri və müharibə iştirakçıları da olub. Vətəndaşlar müraciətləri əsasında aktiv məşğulluq proqramlarına, habelə özünüməşğulluq proqramına cəlb edilmələri üçün qeydiyyata alınıblar.

## 31 MART AZƏRBAYCANLILARIN SOYQIRIM GÜNÜDÜR!



Tariximizin qanla yazılmış çox səhifələri var. Onların sırasında 1918-ci ilin mart soyqırımları öz amansızlığına və miqyasına görə təkcə Azərbaycan tarixində deyil, bəşər tarixində də ən qanlı faciələrdən biridir. Ulu Öndər Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli Fərmanı ilə soyqırımı aktlarına siyasi-hüquqi qiymət verilməsi bu sahədə aparılan tədqiqatlara, həqiqətin üzə çıxarılması istiqamətində səylərin artırılmasına təkan verdi. Xalqımız qan yaddaşının ağrı dolu səhifələrini heç zaman unutmur, unutmayacaqdır.
1918-ci ildə mart qırğınlarının davamı Neftçala rayonunda da yaddaşlardan silinməyən izlər salmışdır. Belə ki, 1918-ci ildə erməni-rus birləşmələri 2000 nəfərlik canlı qüvvə, 12 pulemyot, 6 top, 2 hərbi və 1 nəqliyyat gəmisi ilə ərazimizə üz tutmuş, az müddətdə canlı qüvvəni 6000 nəfərə çatdırmışdılar. Bankə, Seyidlər, Uzunbabalı, Tatarməhəllə, Xıllı, Astanlı, Qaralı, Surra, Cəngan, Qaraqaşlı, bir sözlə Kür çayı boyunca bütün kəndləri talan edərək vəhşiliklər törətmiş, xalqı qarət etmişlər.



Azərbaycan xalqının belə bir çətin anında Türkiyənin o vaxtkı hərbi naziri Ənvər Paşa Qafqaz İslam Ordusu yaratmaqla o ağır günlərdə xalqımızın xilaskarına çevrilmişdir. Osmanlı sultanı V Mehmet Rəşad tərəfindən Nuru paşanın Qafqaz İslam Ordusu komandanı olduğuna və bütün Qafqazda Sultan adından hərbi və siyasi fəaliyyət göstərəcəyinə dair bir fərman da verilmişdi.Türk-Azərbaycan hərbi dəstələri Bankə qəsəbəsində son döyüşdən 11 nəfər itki verərək zəfərlə çıxmışdır. Xalqımız bu gün də Seyidlər məzarlığında uyuyan Türk əsgərlərinin əziz xatirəsini ehtiramla yad edir. Burada ucaldılan xatirə kompleksi isə Türk-Azərbaycan qardaşlığının, birliyinin əbədi yaddaş abidəsidir.

## XOCALI YARALARINDAN DANIŞIR...

Məlum olduğu kimi işğaldan azad edilmiş ərazilərimizdə geniş quruculuq işləri davam edir. Antiterror əməliyyatlarından sonra tam olaraq azad edilən Xocalıda isə artıq bir neçə dəfə insanların amansızlıqla qətlə yetirildiyi kütləvi məzarlıq aşkar edilmişdir. Mart ayının 28-də işğaldan azad edilmiş Xocalı şəhərinin Qaladərəsi adlanan hissəsində yerləşən su anbarının yaxınlığında həyata keçirilən əsaslı bərpa-quruculuq işləri çərçivəsində aparılan qazıntı işləri zamanı basdırılmış vəziyyətdə insana məxsus olması ehtimal edilən sümük fraqmentləri və qalıqların aşkar olunması barədə Xocalı Rayon Prokurorluğuna məlumat daxil olub.

Daxil olmuş məlumat əsasında Baş Prokurorluğun peşəkar əməkdaşları hadisə yerinə ezam olunmaqla, Səhiyyə Nazirliyinin "Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi" Publik Hüquqi Şəxsi, Azərbaycan Milli Elmlər Akademiyası, "Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası" əməkdaşlarının iştirakı ilə hadisə yerinə baxış keçirilib, aşkar edilmiş sümük fraqmentləri ekspertiza və laborator müayinələrin aparılması məqsədilə müvafiq qaydada götürülüb, eləcə də digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.Hazırkı vaxtadək keçirilən prosessual hərəkətlər nəticəsində ərazidə aşkarlanmış insan qalıqlarının ən azı 3 nəfər şəxsə məxsus olması müəyyən edilib.

# ŞƏRƏF TARİXİMİZİ YAZANLAR UNUDULMAYACAQDIR!







**Novruz bayramı ərəfəsində Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq Novruz bayramı ilə əlaqədar şəhid ailələri və Vətən müharibəsi qazilەri ziyarət olunub.**

**Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidovun iştirakı ilə RİH-in məsul şəxsləri, hüquq- mühafizə orqanlarının, idarə, müəssisə və təşkilat rəhbərləri şəhid ailələrinin yaşadığı evlərə bayram günlərində baş çəkib. RİH başçısı cənab Mirhəsən Seyidovun tapşırığı ilə şəhidlərimiz dəfn olunduğu rayonun bütün ərazisi üzrə məzarlıqlarda, xatirə lövhələrində, abidə komplekslərdə genişmiqyaslı iməcliklər keçirilib.**

**Görüş zamanı şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib, onların döyüş yolundan danışılıb. Şəhid ailələri və Vətən müharibəsi iştirakçılarına bayram təbrikləri çatdırılıb, qayğıları öyrənilib və problemlər dinlənilib. Göstərilən diqqət və qayğı ailələr tərəfindən minnətdarlıqla qarşılanıb.**



# SƏMƏD VURĞUN: "ADIN ŞƏRƏFLİDİR SƏNİN, EY QADIN, DAHİLƏR ANASI ÇAĞRILIR ADIN!"







**8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə rayonumuzda şəhid ailələri YAP Neftçala rayon təşkilatının və Neftechala Operating Company LTD Şirkətinin Həmkarlar İttifaqı Komitəsinin əməkdaşları tərəfindən ziyarət ediblər. Ziyarət edənlər şəhid analarını, bacılarını, xanımlarını və qızlarını 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edib, qayğıları ilə maraqlanıblar. Şəhid ailələri dövlətin diqqət və qayğısı ilə tam əhatə olunduqlarını, buna görə Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını bildiriblər. Sonda şəhid ailələrinə xatirə hədiyyəsi təqdim olunub.**









**Xalqımızın, vətənimizin şərəf tarixini yazan qəhrəman şəhidlərimizin bütün doğmalarına can sağlığı arzu edirik. Onlar şəhid oğulların vətənə əmanətləridir. 8 mart Beynəlxalq Qadınlar Günü ərəfəsində YAP Neftçala rayon təşkilatı tərəfindən, həmçinin onlarla birlikdə bu işə qoşulan vətənsevər insanlarımızın dəstəyi ilə rayon üzrə 60 -dan çox şəhid ailəsi ziyarət edilmişdir. Biz bu birliyi qorumaqla şəhidlərimizin cəsarətlə getdiyi yolun ədalətini, həqiqətini qorumuş oluruq. Vətənimizi də, xalqımızı da, tariximizi, mədəniyyətimizi də yaşadan birliyimizdir. Bu birlik üçün fədakarlıq etmək hər bir vətəndaşımızın borcudur. Yaşasın Azərbaycan! Şəhidlər ruhu şad, məkanları behişt olsun daim! Allah səbir versin əzizlərinə!**



# YENİ AZƏRBAYCAN PARTİYASI NEFTÇALA RAYON TƏŞKİLATININ YARADILMASININ 31-Cİ İLDÖNÜMÜ QEYD EDİLDİ



Tədbirdə Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, RİH-in məsul şəxsləri, YAP Neftçala rayon təşkilatının, hüquq- mühafizə orqanlarının rəhbərləri, şəhid ailələri, partiya veteranları və ilk ərazi partiya təşkilatlarının üzvləri iştirak edib.

Tədbir iştirakçıları Neftçala şəhərinin mərkəzindəki Ümummilli Lider Heydər Əliyevin əzəmətli heykəlini ziyarət edib, ruhunu ehtiramla yad ediblər. Tədbirdə Ulu Öndər Heydər Əliyevin, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi zamanı şəhid olan hərbi qulluqçuların və vəfat edən partiya üzvlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən YAP Neftçala rayon təşkilatının sədri Ülvi Fərzəliyev, partiyanın veteran üzvləri Oktay Kərimov və "Gündoğar" qəzetinin baş redaktoru Bədirə Niftaliyeva 1992-ci ilin oktyabrında bir qrup Azərbaycan ziyalısının Ulu Öndər Heydər Əliyevə müraciət edərək Yeni Azərbaycan Partiyasının yaradılması haqqında təklif etməsindən, Ulu Öndər Heydər Əliyevin 24 oktyabr tarixli cavab məktubu ilə Yeni Azərbaycan Partiyasının yaradılması və ona rəhbərlik etməyə razılıq verdiyini qeyd edərək ötən bu tarixi dönəmdə mərhələ-mərhələ partiyanın keçdiyi tarixi yol haqqında öz fikirlərini diqqətə çatdırıblar.



1992-ci il noyabrın 21-də Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə Yeni Azərbaycan Partiyasının təsis konfransının keçirilməsi yeni müstəqil Azərbaycanın tarixində parlaq gələcəyin əsasını qoydu. Yeni Azərbaycan Partiyasının qısa müddətdə xalqın sevimli partiyasına çevrilməsinin isə tək bir səbəbi var idi - xalqın partiyanın sədrinə olan sevgisi və inamı. Zaman göstərdi ki, xalq Heydər Əliyevə arxalanmaqla, onun ətrafında sıx birləşməklə öz uğurlu gələcəyini təmin etdi.Tədbirdə çıxış edən Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov Ulu Öndərin hakimiyyətə qayıtdıqdan sonra ölkədə vətəndaş müharibəsi təhlükəsinin qarşısının alınması, daxili və xarici irticaçı qüvvələrin Azərbaycanı parçalamaq, dövlətçiliyimizi məhv etmək istiqamətindəki bütün cəhdlərinin qarşısının alındığını qeyd etdi. Bildirdi ki, Ulu Öndərin hakimiyyətə qayıtması Azərbaycana sülh, sabitlik, dirçəliş və fasiləsiz inkişaf gətirdi və cəmiyyətin hər bir üzvündə dövlətimizin yenilməzliyi ilə bağlı böyük əminlik yarandı. Ulu Öndər partiyanın uğurlu gələcəyini onun yaradılmasının ilk illərindən gördü. O, müasir Azərbaycanın davamlı və nəhəng uğurlara imza atacağından əmin idi. Ümummilli Lider Heydər Əliyev partiyanın yaradılmasının onuncu ildönümü ilə bağlı tədbirdə deyib: ***"Müstəqil Azərbaycan yeni Azərbaycandır. Müstəqil Azərbaycanda yeni ictimai-siyasi quruluş yaranıbdır. Yeni iqtisadiyyat formaları yaranıb, demokratiya, siyasi plüralizm inkişaf edir. Belə bir yeni Azərbaycan keçmişdə yaşadığımız, keçmişdə olan Azərbaycandan fərqlidir. Ona görə partiyamızın adı da Yeni Azərbaycan Partiyasıdır. Məhz Yeni Azərbaycan Partiyası müstəqil Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır".***

→ 3





# TƏBRİK EDİRİK!

Məlum olduğu kimi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamına uyğun olaraq 2023-cü il Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə "Heydər Əliyev İli" elan edilmişdir. Müstəqil Azərbaycanın yeni tarixinin memarı olan Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi respublikamızın hər yerində olduğu kimi Neftçala rayonunda da təsdiqlənmiş "Tədbirlər Planı"na uyğun olaraq geniş şəkildə qeyd edilmişdir.





Ulu Öndərin anadan olmasının 100 illik yubileyi münasibətilə "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalı təsis edilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə bir sıra şəxslər "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalı ilə təltif olunublar.

Rayonumuzdan da Neftçala Rayon İcra Hakimiyyətinin Başçısı cənab Mirhəsən Seyidov başda olmaqla rayonumuzda uzun illər rayonun sosial-iqtisadi, ictimai-siyasi həyatında böyük zəhmətlə çalışan Bahəddin Leysanov və Ruhəngiz Nəcəfova Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə "Heydər Əliyevin 100 illiyi(1923-2023)" yubiley medalı ilə təltif olunublar.

Təqdimat mərasimində çıxış edən Neftçala Rayon İcra Hakimiyyətinin Başçısı Mirhəsən Seyidov müasir və müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Ulu Öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı misilsiz xidmətlərindən danışıb və təltif olunan şəxsləri təbrik edib.

Tədbirdə söz alan Bahəddin Leysanov və Ruhəngiz Nəcəfova çıxışlarında böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Ulu Öndər Heydər Əliyevin tükənməz xidmətlərindən bəhs ediblər, Ulu Öndərin siyasi davamçısı, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevə onlara göstərilən diqqətə və ali mükafata görə təşəkkürlərini ifadə ediblər. Tədbirdə iştirak edənlər dəyərli ziyalılarımızı təbrik edərək onların simasında bu dəyərin hər birimiizi sevindirdiyini qeyd edərək, Cənab Prezidentə təşəkkürlərini bildiriblər.




## *Azərbaycan təhlükəsizlik orqanlarının yaranmasından 105 il ötür*

Ölkəmizdə milli təhlükəsizlik orqanının tarixi 1919-cu il martın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri Səməd bəy Mehmandarovun əmri ilə Hərbi Nazirliyin Baş Qərargahı nəzdində kəşfiyyat və əks-kəşfiyyat bölməsinin təşkil olunması ilə başlayıb. Qurumun ilk rəhbəri Məmmədbağır Şeyxzamanlı, sonra onun qardaşı Nağı Şeyxzamanlı təyin edilib. Ümummilli Lider Heydər Əliyevin 1967-ci ildə Dövlət Təhlükəsizlik Komitəsinin sədri təyin edilməsi ilə Azərbaycanın təhlükəsizlik orqanlarının tarixində tamamilə yeni mərhələ başlanıb. Mənalı və şərəfli ömrünün 25 ilini milli təhlükəsizlik orqanlarında xidmətə həsr edən Ümummilli Lider o illər ərzində təhlükəsizlik sistemində əsaslı dönüş yaradıb, milliləşdirmə siyasətinin əsasını qoyub və bu məqsədə nail olub. 28 Mart -DÖVLƏT TƏHLÜKƏSİZLİYİ XİDMƏTİ İŞÇİLƏRİNİN PEŞƏ BAYRAMI MÜNASİBƏTİLƏ Vətənimizi sevə-sevə, fədakarlıqla qoruyan, ucaldan bütün təhlükəsizlik xidməti işçilərini təbrik edir, onlara şərəfli peşələrində daim ucalıq, uğurlu fəaliyyət, ən əsası isə can sağlığı diləyirik.

# YENİ TƏYİNAT!

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRİ CƏNAB VİLAYƏT EYVAZOVUN MÜVAFİQ ƏMRİNƏ ƏSASƏN 14 MART 2024 - CÜ İL TARİXİNDƏN POLİS POLKOVNİK - LEYTENANTI EMİL CAVADOV NEFTÇALA RAYON POLİS ŞÖBƏSİNİN RƏİSİ VƏZİFƏSİNƏ TƏYİN EDİLİB.

POLİS POLKOVNİK–LEYTENANTI EMİL CAVADOVU YENİ TƏYİNATI MÜNASİBƏTİLƏ TƏBRİK EDİR, CƏMİYYƏTİMİZİN QORUNMASINDA, İCTİMAİ ASAYİŞİN MÜHAFİZƏ OLUNMASINDA ÖNƏMLİ OLAN ŞƏRƏFLİ XİDMƏTİNDƏ CAN SAĞLIĞI, UĞURLAR DİLƏYİRİK.



# YENİ AZƏRBAYCAN PARTİYASI NEFTÇALA RAYON TƏŞKİLATININ YARADILMASININ 31-Cİ İLDÖNÜMÜ QEYD EDİLDİ











2⟵ RİH-in Başçısı cənab Mirhəsən Seyidov qeyd etmişdir ki, 2021-ci ilin mart ayının 5-də keçirilən YAP-ın VII qurultayında Mehriban xanım Əliyevanın YAP-ın Sədrinin birinci müavini təyin olunması partiyamız və bütövlükdə cəmiyyət üçün mühüm əhəmiyyət kəsb etməklə, YAP-ın və dövlətimizin daha da güclənməsinə xidmət edən mühüm amillərdən biridir. 2024-cü il fevralın 7-də keçirilən Azərbaycan Respublikasında növbədənkənar Prezident seçkilərində Prezident İlham Əliyevin inamlı qələbə qazanaraq növbəti müddətə dövlət başçısı seçilməsini, keçirilən seçkidə rayonumuzun nəticələrinin yüksək olmasını diqqətə çatdırıb.

Ulu Öndər Heydər Əliyevin dediyi kimi, Yeni Azərbaycan Partiyası öz fəaliyyəti ilə sübuta yetirdi ki, o, məhz yeni müstəqil Azərbaycanı qurmağa, onu zirvələrə, parlaq gələcəyə daşımağa qadir partiyadır.

Tədbirin sonunda Neftçala RİH və YAP Neftçala rayon təşkilatı tərəfindən səmərəli fəaliyyətinə görə bir qrup şəxslərə fəxri fərmanlar təqdim olunub.

# NEFTÇALANIN BAHAR ƏTİRLİ NOVRUZ TƏDBİRLƏRİNDƏN

*Xalqımız hər il Novruz bayramını böyük ruh yüksəkliyi ilə qeyd edir. 2024-cü ildə torpaqlarımızın işğaldan azad edildiyi hər qarış vətən torpağında baharın gəlişi böyük coşqu ilə qeyd edilmişdir. Rayonumuzda da milli-mənəvi dəyərlərimizin böyük bir tarixini özündə ehtiva edərək əsrlərdən keçərək bu günümüzə qədər gələn Novruz bayramı xoş əhval-ruhiyyədə qeyd edilmişdir.*

*Novruz bayramını qeyd etmək təzə ili, baharın ilk gününü qarşılamaq deməkdir. Alimlərin fikrincə bu bayramın tarixi çox qədimdir. Novruz bayramının mənşəyi, onunla bağlı əsatirlər, miflər qədimdir. Tədqiqatçılar Novruz bayramının məhz yaxın şərqin qədim əkinçiliklə məşğul olan xalqlar arasında meydana gəldiyini söyləyirlər. Şərqin böyük ensiklopedik alimi Əbu Reyhan əl-Biruni (XI əsr) Novruz bayramı haqqında müxtəlif rəvayətlərdən onun yaranması səbəblərindən, bu bayram münasibətilə xalq arasında yayılmış adət-ənənələrdən bəhs etmiş, Novruz bayramının təbiətin oyanması, əkinçilik təsərrüfatının başlanması ilə bağlı əsl dünyəvi bayram olduğunu qeyd etmişdir. Nizamülmülk (XI əsr) "Siyasətnamə" əsərində Novruz bayramından yazın gəlişi ilə əlaqədar keçirilən kütləvi xalq bayramı kimi bəhs etmişdir. Novruz inanclarının əsasında insana, təbiətə həyat verən dörd ünsürün - Suyun, Odun, Yelin (havanın), Torpağın isinməsi, "dirilməsi" durur. Odur ki, Novruz şənlikləri təzə ilin başlanmasına, yəni martın 21-nə dörd həftə qalmış keçirilməyə başlayır. Bu aya Boz ay deyirlər. Həmin ayın hər çərşənbəsi təbiətin bir ünsürü ilə əlaqələndirilmiş və beləliklə, insanların təsəvvüründə ilaxır çərşənbələr yaranmışdır. Əski inamlara görə bu çərşənbələrin hər birində təbiətin dörd ünsüründən biri "dirilmişdir". İlin Novruzdan əvvəlki dörd axır çərşənbəsi müqəddəs sayılır. Bunlar Su çərşənbəsi, Od çərşənbəsi, Yel çərşənbəsi və Torpaq çərşənbəsi adlanır.*











# VƏTƏNLƏ YAŞAYANLAR!

Vətən müharibəsi şəhidi, gizir Ağasadıq Xəlil oğlu Aslanov **1 mart 1991-ci ildə** Neftçala rayonu Kürqarabucaq kəndində anadan olmuşdur. Vətən müharibəsində şəhadətə ucalan Ağasadıq Aslanov 8 noyabr 2020-ci ildə doğma kəndində vətən torpağına qovuşmuşdur. Ruhu şad olsun.



Vətən müharibəsi şəhidi Ataməli Musaoğlu **5 mart 1995-ci ildə** Bakı şəhəri Lökbatan qəsəbəsində doğulmuşdur. Əslən Neftçala rayonundan olduğu üçün uşaqlıq illəri, xüsusilə Neftçala rayonunda, Seyidlər kəndində yaşayan nənəsinin yanında keçmişdir. Ataməli Musaoğlu Vətən müharibəsində şəhadətə ucalaraq 16 oktyabr 2020-ci il tarixində doğulduğu qəsəbədə dəfn edilmişdir. Ruhu şad olsun.



Vətən müharibəsi şəhidi Bəhruz Əli oğlu Nəcəfov **9 mart 1996- cı ildə** Neftçala rayonu II Qaralı kəndində anadan olmuşdur. Vətən müharibəsində şəhadətə ucalan Bəhruz Nəcəfov 9 oktyabr 2020-ci ildə doğma kəndində dəfn edilmişdir.
Ruhu şad olsun.



Vətən müharibəsi şəhidi, XTQ-nin giziri Şahmar Vidadi oğlu Mənəfov **20 mart 1990-cı** ildə Neftçala rayonu Cəngan kəndində anadan olmuşdur. Torpaqlarımızın azadlığı uğrunda Vətən müharibəsində şəhadətə yüksələn Şahmar Mənəfov 23 oktyabr 2020-ci il tarixdə öz doğma kəndində vətən torpağına qovuşmuşdur. Ruhu şad olsun.



Vətən müharibəsi şəhidi gizir Telman Yadigar oğlu Kəlbiyev **24 mart 1988-ci ildə** Neftçala rayonu Bankə qəsəbəsində anadan olmuşdur. Oktyabr ayının 2-də şəhid olan Telman Kəlbiyev 85 gündən sonra doğma rayonumuzda Şəhidlər Xiyabanında vətən torpağına qovuşmuşdur. Ruhu şad olsun.



Vətən müharibəsi şəhidi, gizir Vasif Gülhəsən oğlu Mehbalıyev **26 mart 1994-cü ildə** Neftçala rayonu Aşağı Surra kəndində anadan olmuşdur.Vətən müharibəsində şəhadətə ucalan Vasif Mehbalıyev 16 oktyabr 2020-ci ildə doğma kəndində vətən torpağına qovuşmuşdur. Ruhu şad olsun.



Vətən müharibəsi şəhidi, Baş leytenant Əsəd Cəmaləddin oğlu Əsədov **29 mart 1978-ci ildə** Neftçala rayonu Tatarməhlə kəndində anadan olmuşdur. Vətən müharibəsində şəhadətə ucalan Əsəd Əsədov 14 oktyabr 2020-ci ildə Neftçala rayon Şəhidlər Xiyabanında vətən torpağına qovuşmuşdur. Ruhu şad olsun.



Vətən müharibəsi şəhidi, XTQ-nin giziri, Aprel döyüşləri qazisi Pərviz Həsən oğlu Məmmədli **30 Mart 1996-cı ildə** Neftçala rayonunda anadan olmuşdur.
Pərviz Məmmədli Vətən müharibəsində oktyabr ayının 24 -də şəhadətə ucalmış, 25 oktyabr tarixində Neftçala rayon Şəhidlər Xiyabanında dəfn edilmişdir. Ruhu şad olsun.



Şəhid İbrahim Möhsüm oğlu Mənəfov 31 mart 1995- ci ildə Neftçala rayonu, Bankə qəsəbəsində anadan olmuşdur. 2018-ci ildə Ağdamda hərbi xidmətdə olarkən 19 fevral 2018-ci il tarixində ermənilərin atəşkəsi pozması nəticəsində şəhid omuşdur.
Şəhid İbrahim Mənəfov 20 Yanvar 2018 -ci ildə Neftçala rayonu Seyidlər kənd məzarlığında vətən torpağına qovuşmuşdur.
Ruhu şad olsun.



QARABAĞ AZƏRBAYCANDIR!

## BANKƏ QƏSƏBƏSİNDƏ SOYQIRIMLA BAĞLI BİR ÜNVAN VAR

Gün kimi aydın olan tarixi həqiqətdir ki, yurd yerimiz olan qəsəbəmizdə xain və məkrli niyyətli bədnam qonşularımız, erməni qaniçənləri 1918-ci ilin martında çoxsaylı qəsəbə sakinlərinə qarşı soyqırım törətmiş, soydaşlarımızı vəhşicəsinə öldürərək qətlə yetirmişlər. Soyqırımla bağlı köməyə gələn Qafqaz İslam Ordusunun komandiri Nuru paşanın döyüşçüləri qəsəbə sakinləri ilə birləşib ermənilərə xeyli sayda düşmən itkisiylə bağlı müqavimət göstərmişlər. Deyilənlərə görə türk döyüşçülərinin müqavimətinə tab gətirə bilməyən bəzi erməni quldurları döyüş meydanında özlərinə qəsd edərək bir-birilərini öldürmüş, sağ qalanlar isə Kür çayı boyunca üzüyuxarı Salyan istiqamətində gəldikləri gəmi ilə qaçmağa üstün olmuşlar. Beləliklə indiki Ərəbqardaşbəyli dairəsində ermənilərin gəmisi Nuru paşanın döyüşçülərinin sərrast top atəşiylə çaya batırılmış, sağ qalan düşmən qüvvələri isə Nuru paşanın pusqusundan qurtula bilməyərək türk döyüşçüləri tərəfindən öldürülmüşlər.

1918-1920-ci illərdə məkrli niyyətli qonşularımız olan ermənilərin təcavüzkarlıq məqsədilə Bankədən üzü Xəzərə tərəf gələrək yerli əhaliyə divan tutmaq, onlara əzab-əziyyət niyyətləri tarixi faktlardır. Görənlərin nəql etdiyinə görə camaat qəsəbədən çöllüyə qaçaraq onlardan gizlənmiş, başı papaqlılar isə türklərlə birləşib onlara kütləvi divan tutublar. Əlbəyaxa döyüşdə ermənilərdən bir çoxu mühasirədən çıxa bilmədiklərinə görə özlərini öldürmüşlər. Qalanları isə gəldikləri gəmiylə Kür çayı boyunca üzü yuxarı, Salyan istiqamətinə qayıdarkən türk ordusunun top atəşinə məruz qalıblar. Qəsəbə sakini, müharibə və əmək veteranı Abdulhüseyn Dadaşov da bu erməni-müsəlman davası haqqında belə deyərdi: “ Türk ordusundan olan Nuru paşanın atıcı alayının sərrast top atıcıları onları çay yuxarı buraxaraq strateji pusqu qurmuşdular. Bankəlilərin müqavimətinə tab gətirə bilməyən ermənilər Salyan istiqamətinə qaçarkən Ərəbqardaşbəyli ərazisində Nuru paşanın atıcı alayının sərrast top atəşi nəticəsində onların gəmisi özləriylə bərabər müqavimətsiz suya batırılaraq məhv edilmişdir. Bankədə erməni-müsəlman davası haqqında qəsəbə sakini, ağsaqqal Şirməmməd Mecidov isə belə deyərdi: “ Bizim və qonşumuz Mahmudov Məşəduxalıqgilin yurdu təpəlik ərazidə yerləşirdi. Oranı qazarkən çoxlu insan sümüklərinə rast gəlirdik, görənlər deyirdilər ki, bunlar erməni qatillərinin qətlə yetirib vəhşicəsinə öldürdükləri soydaşlarımızın sümükləridir.

Bu qəbildən qəsəbəmizin ən yaşlı sakinlərindən ömrünün 97-ci baharında dünyasını dəyişən Allahqulu Hüseynqulu oğlu Hüseynov, ağbirçək Səkinə xanım Abbasqulu qızı İskəndərova, 86 yaşlı “Qırmızı Əmək bayrağı” ordenli Məmməd Musa oğlu Əliyevin xatirəli söhbətlərində də erməni qəsbkarlarının təcavüzkarlıq niyyətləri xüsusi vurğulanırdı.

Bu təəssüratla yurd yerlərimizin tarixi haqqında qan yaddaşımıza əbədi həkk olunmuş səhifələri bir daha arayaq: “Tariximizin ibrət dərsini eşidək. Uzun əsrlər türk xalqına qənim kəsilən, onların qanına susayan ermənilər dünyada qondarma erməni soyqırımı haqqında elə hay-haray salır ki, elə bil təcavüzə, soyqırıma, deportasiyaya məruz qalan biz yox, doğrudan da onlardır. Görəsən nankor ermənilər 1828-1832-ci illərdən başlayaraq azərbaycanlıları Cənubi Qafqazdan və Ön Asiya yaylasından, tarixi torpaqlarımızdan kütləvi şəkildə köçürülməyə, qovulmağa məruz qalmağımızı niyə unudurlar?! Axı 1828-1832; 1877; 1905-1907; 1918-1920; 1948-1963 və 1988-ci il hadisələri millətimizin faciəli faktlarıdır. Bunları heç cür inkar etmək olmaz.

Millətimizin soyqırımları haqqında çox deyilib, çox bəhs edilib, erməni vəhşiliyinin miqyası, vəhşilik dərəcəsi aydın göstərilib. Bu qəbildən 1918-20-ci illərdə erməni-bolşevik dəstələrinin törətdiyi soyqırımları bir daha xatırlayaq ki, bizim Neftçala torpağından da yan keçməyib.

Tanınmış türkoloq Hacı Azər Əbilovun “Qafqaz İslam Ordusu Neftçalada” kitabı da bu cəhətdən çox böyük əhəmiyyət kəsb edir. Qanlı hadisələri özündə əks etdirən bu kitabda həmin dövrün şahidlərindən Sürayyə Abbasovanın da söylədikləri adamın qəlbini titrədir. Onun dediklərindən: “ Yay vaxtı idi. Kəndə küy düşdü ki, durmayın, qaçın, ermənilər gəlir.Ailəm yanımda deyildi. Qaynım Ağakişi kənddən 16 qadın və 2 uşağı götürüb payı-piyada Babazənin dağına tərəf apardı. Ağakişinin də yoldaşı on iki ilin gəlini – nubarlıq hamilə idi. Babazəninin çökəkliyində qaya kimi bir yerə yığışıb sığınacaq tapdıq. Bir də gördük ki, bir nəfər atlı beş-altı silahlı ilə gəlir. Qabaqdakı kəndin adamı idi. Ermənilərə bələdçilik edirdi. Xülasə, çatar-çatmaz Ağakişini güllələdilər. Ağakişi yıxılanda gəlin sürünə-sürünə ərinə tərəf getdi. Başını qucaqlayıb oxşayanda gavur gəlini də qanına qəltan elədi. On iki ilin nübar hamiləsi ərinin qanına bələşdi. Məni də vurdular. Çiynimdən, biləyimdən və dizimdən yaraladılar. Yerdə qalan on səkkiz nəfəri də qətlə yetirdi. Üç gün, üç gecə meyitlərin arasında qaldım”... Deyilənləri, eşidilənləri anıb deyə bilərik ki, biz ermənilərə dost kimi nə baxa bilərik, nə də ermənilərlə dost ölkələrlə münasibət qura bilərik. Ulu babaların müqəddəs vəsiyyəti həmişə qulağımızda səslənməlidir: “Qarı düşmən dost olmaz”.

***Ağalar Ağayev,***
***Bankə qəsəbə sakini, təqaüdçü müəllim, YAP-nın üzvü***



**“GÜNDOĞAR” qəzeti** həmyerlimiz, 1960-cı ildə Neftçala rayonunun Qırmızıkənd kəndində ziyalı ailəsində anadan olmuş, Pedaqogika elmləri doktoru, professor, Azərbaycan Respublikasının Təhsil İnstitutunun “Təhsilin nəzəriyyəsi və tarixi” şöbəsinin müdiri, 2006-cı ildə “Qabaqcıl təhsil işçisi ” döş nişanı, 2021-ci ildə “Əməkdar müəllim” Fəxri adları ilə təltif olunan, “Təhsil” qəzetinin məsul katibi, “Nərgiz qəzeti”nin bir müddət redaktoru, 300-dən çox elmi, pedaqoji-metodik, publisistik əsərin müəllifi, “Azərbaycan məktəbi”, “Məktəbəqədər və ibtidai təhsil”, Azərbaycan Respublikası Təhsil İnstitutunun “ Elmi əsərlər”i, Azərbaycan Milli Elmlər Akademiyası Gəncə Bölməsi “Xəbərlər məcmuəsi”, “Pedaqoji elmlər seriyası”nın, “ Pedaqogika”, Bakı Qızlar Universitetinin “ Elmi əsərlər”i, “ Humanitar elmlərin öyrənilməsinin aktual problemləri” jurnallarının, Azərbaycan Elm Mərkəzinin “Qədim diyar ” beynəlxalq onlayn elmi jurnalının redaksiya heyətinin üzvü, Turan Elmlər Akademiyasının akademiki **İntiqam Cəbrayılovun** milli-mənəvi dəyərlərimizin əhəmiyyətinin qorunmasına həsr edilmiş məqaləsini oxuculara təqdim edir:

# AŞIQ ƏLƏSGƏR İRSİNDƏ MƏNƏVİ DƏYƏRLƏRİN TƏCƏSSÜMÜ

Azərbaycan xalqı dünya elminə, mədəniyyətinə tarixən böyük şəxsiyyətlər bəxş etmişdir. Bu şəxsiyyətlərdən biri də Aşıq Ələsgərdir (1821-1926).

Aşıq Ələsgərin həyatı və yaradıcılığı örnəklərlə o qədər zəngindir ki, onun irsi mənəvi dəyər kimi çox əhəmiyyət kəsb edir və böyüyən nəsillərin tərbiyəsində təsirli vasitə kimi qiymətlidir. Məhz bu keyfiyyətləri nəzərə alınaraq böyük sənətkarın xatirəsi həmişə əziz tutulmuş, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və ölkə prezidenti İlham Əliyevin sərəncamları ilə onun yubileyləri keçirilmişdir.

Aşıq Ələsgər hələ uşaq yaşlarından dərin zəkası, öz qabiliyyəti, zəhmətkeşliyi ilə yaşıdlarından fərqlənmiş və bu da onun el-obada tezliklə tanınmasına, yaşa dolduqca böyük nüfuz qazanmasına zəmin yaratmışdır. Şair Alməmməd oğlu Aşıq Ələsgərin doğulub boya-başa çatdığı mühit (Göyçə mahalı Ağkilsə kəndində doğulub) ümumiyyətlə, şeirə, sənətə böyük dəyər verən bir mühit olmuşdur. O, müəllimi Aşıq Alıdan dərs alandan sonra daha da məşhurlaşmışdır. Tarixdən məlumdur ki, Aşıq Alı da dövrünün görkəmli sənət adamı, el ağsaqqalı olmuş, çoxlu şagirdlər yetişdirmişdir. Onların içərisində Aşıq Ələsgər yaratdığı irs xüsusilə seçillir.

Aşıq Ələsgər irsində həm milli mənəvi, həm də bəşəri dəyərlər əksi onun özünün nə qədər zəngin mənəviyyat sahibi, olduğunun, adət-ənənələrə, soy-kökə bağlılığının, mənəvi-əxlaqi keyfiyyətlərə-dəyərlərə yüksək qiymət verdiyinin göstəricisidir.

Böyük sənətkarın irsi ilə tanışlıqdan aydın olur ki, o, xalqın tarixini, yaratdığı mədəni-mənəvi sərvətlərin mahiyyətini, dəyərini çox yaxşı bilir. Bəzi faktlara diqqət yetirək. Məsələn, “Dəyirmançı aşıq” dastanında erməni fitnəsindən, XX yüzilliyin əvvəllərində azərbaycanlılara qarşı törədilən soyqırımdan bəhs edilir. Burada Aşıq Ələsgərin el ağsaqqalı kimi mərdliyi, vətənpərvərliyi, doğma torpağa, yurda bağlılığı, xalqa məhəbbəti, insan sevgisi, böyüklüyü də konkret faktlarla diqqətə çatdırılır. Tarixdən məlumdur ki, ermənilər dəfələrlə xalqımıza qarşı soyqırım törətmişlər. Onlarla sülh sazişi bağlananda da xəyanət etmiş, heç vaxt şərtlərə, barışığa əməl etməmişlər. Ona görə də Aşıq Ələsgər el-obanı ayıq olmağa, ermənilərin yalan vədlərinə uymamağa səsləmişdir. Ermənilərin Göyçə mahalında törətdikləri soyqırım Aşıq Ələsgəri də sarsıtmış və o zaman bir müddət Kəlbəcərdə yaşamışdır. Ömrünün son illərində yenidən Göyçəyə qayıtmış, orada dünyasını dəyişmişdir. Aşıq Ələsgərin 150 illik yubileyi keçirilərkən onun doğma kəndində-Ağkilsədə qəbirüstü abidəsi də ucaldılmışdı. Lakin soydaşlarımızın öz yurdlarından - Qərbi Azərbaycan torpaqlarından didərgin salındığı dövrdə (1990-cı illərdə) erməni vandalları böyük sənətkarın da məzarını, qəbirüstü abidəsini dağıtmışlar.

Bu gün Aşıq Ələsgər Azərbaycan xalqının, bütün türk dünyasının qəlbində yaşayır, onun əzəmətli abidəsi hər birimizin qəlbindədir.

Şeirlərində, dastanlarında aşıladığı başlıca ideyalar insanın şəxsiyyət kimi formalaşmasına bilavasitə təsir edən fikirlərdir. El-oba, valideyn qədrini bilmək, ağıllı, intizamlı olmaq, nəfsinə qalib gəlmək, həqiqəti söyləmək, yalan danışmamaq, sözə dəyər vermək, etibarlı, sədaqətli, mərd, igid olmaq, özünü öyməmək, “mənəm-mənəm” prinsipindən uzaq olmaq və s. kimi mənəvi keyfiyyətlər Aşıq Ələsgər irsində geniş əksini tapmışdır.

Böyük sənətkarın yaradıcılığında əksini tapmış mənəvi dəyərlərlə bağlı şeir nümunələrinə diqqət edək:

**Aşıq olub diyar-diyar gəzənin,**
**Əvvəl başda pür kamalı gərəkdi.**
**Oturub-durmaqda ədəbin bilə,**
**Mərifət elmində dolu gərəkdi.**

Burada aşıq adı çəkilsə də əslində bütün insanlara müraciət olunur. İnsan münasibətlərində ilk növbədə ağlın, zəkanın, kamilliyin rolu ön plana çəkilir. Yüksək intellekt, kamillik insan üçün mənəvi dəyər göstəricisi kimi təqdim edilir. Böyük sənətkarın məsələyə belə yanaşması bu gün də aktual hesab edilir və şagird şəxsiyyətinin formalaşmasında nəzərə alınır. Müasir dövrdə insan kapitalının formalaşdırılması ideyasının mahiyyətində yüksək intellekt amili mühüm rol oynayır. Şəxsiyyətin intellekti onun münasibətlər sistemindəki mövqeyinə ciddi təsir göstərir. Belə ki, yüksək intellekt həm də şəxsiyyətin liderlik keyfiyyətlərinin inkişafı üçün müəyyən zəmin, imkanlar yaradır.

Təqdim etdiyimiz şeir parçasında həm də ədəb-ərkan qaydalarına işarə edilir. Böyük sənətkar haqlı olaraq insanı oturub-durmaqda ədəbli, mərifətli olmağa səsləyir. Mərifəti elm kimi dəyərləndirir. Bu, pedaqogika elmində, əxlaq nəzəriyyəsində bu gün də diqqətdə olan ən mühüm məsələlərdən biridir. İnsanın şəxsiyyət kimi yetişməsi təbii ki, əxlaq, mənəviyyat göstəricilərindən xeyli dərəcədə asılıdır. İnsanın intellektual potensialı artdıqca, onun əxlaqı, mənəviyyatı saflaşmalı, eyni zamanda əxlaqı saflaşdıqca intellekti inkişaf etməlidir. Bu qarşılıqlı zənginləşmə insanın şəxsiyyət yetkinliyini daha ola artırır.

Aşıq Ələsgər irsində bu məsələlərlə bağlı zəngin praktik nümunələr vardır. O, nəfsi cilovlamaqda mərifətin xüsusi rol oynadığını qeyd edir.

Böyük sənətkar yolunu azanları haqlı olaraq günahkar sayır və insan əməllərinin, xeyirin, şərin iki mələk tərəfindən yazıldığını bildirir. Bu faktlar göstərir ki, Aşıq Ələsgər həm də dini məsələləri, islam mədəniyyətini dərindən mənimsəmiş və öz şeirlərində yeri gəldikcə ibrətamiz nümunələrlə fikirlərini əsaslandırmışdır. Aşıq Ələsgər cəmiyyətdə haqqa, həqiqətə inanan, düz yolla gedən insanların, o cümlədən alimlərin çoxluğunu arzulayır.

**Mən istərəm, alim, mömin yüz ola,**
**Meyli haqqa doğru, yolu düz ola.**

Bu şeir nümunəsində deyilən fikirlər mənəvi dəyərləri ifadə edir, insanları doğruçuluğa, düzlüyə səsləyir.

Aşıq Ələsgər yalan danışan insanın əslində özünə zülm etdiyini bildirir:

**Yalan deyib, qeybət etmə,**
**Rəhmin gəlsin canına.**

söyləməklə yalandan, qeybətdən uzaq olmağı tövsiyə edir. O, insana qiymət verərkən onu ədalətli, mərifətli olmağa səsləyir:

**Haqq sizə gərəkdi, düz qiymət olsun,**
**Qiyməti verməyə mərifət olsun.**
**İnsanda insanlıq, cəsarət olsun,**
**Neylərəm ki, cah - calalı varıymış.**

Göründüyü kimi Aşıq Ələsgər var-dövlətə deyil, insanlıq keyfiyyətlərinə böyük önəm verir. Bu yanaşma böyük sənətkarın özünün də nə qədər ali mənəvi keyfiyyətlərə sahib olduğunu bir daha təsdiqləyir. Təsadüfi deyil ki, şeirlərinin birində belə deyir:

**Yaxşı hörmət ilə təmiz ad ilə**
**Mən dolandım bu Qafqazın elini.**
**Pirə ata dedim, cavana-qardaş,**
**Ana-bacı bildim, qızı, gəlini.**

İnsan münasibətlərində böyüyün-kiçiyin yerini bilmək, ağsaqqala-ağbirçəyə, ana-bacıya hörmət etmək, qızları, gəlinləri qorumaq, onları ana və bacı qismində dəyərləndirmək mühüm mənəvi keyfiyyətlərdəndir. Şeir parçasında deyildiyi kimi Aşıq Ələsgər bütün Qafqazı gəzib dolanmış və hər yerdə öz davranışına, hərəkət və rəftarına xüsusi əhəmiyyət vermiş, xalqımızın adət-ənənələrinə hörmətlə yanaşmış, el arasında münasibəti ilə hər kəsə örnək, nümunə olmuşdur. Bu dəyərlər müasir dövrümüzdə də xüsusi əhəmiyyət kəsb etməsilə diqqəti cəlb edir. İndiki dövrdə və gələcəkdə də belə dəyərlərin qorunub saxlanması çox vacibdir. Bu dəyərlər xalqımızın milli mentalitetini, milli simasını əks etdirən keyfiyyətlərdir. Dünyada qloballaşma proseslərinin getdikcə inkişaf etməsi bizim ilk növbədə xalq, millət olaraq dəyərlərimizə qarşı daha həssas yanaşmağımızı, bəşəri dəyərlərlə yanaşı milli dəyərlərimizi də qorumağı, möhkəmləndirməyi, gələcək nəsillərə çatdırmağımızı tələb edir. Buna nail olmağın əsas yollarından biri böyüyən nəsillərə düzgün tərbiyə vermək, onları milli ruhda, yetkin şəxsiyyət kimi formalaşdırmaqdır. Ona görə də tərbiyə işinə ciddi yanaşmaq, tərbiyə prinsiplərinə əməl etmək vacibdir. Aydın məsələdir ki, tərbiyədə irsi keyfiyyətlər mühüm rol oynayır. Bunu böyük sənətkarımız Aşıq Ələsgər də etiraf edir:

**Bədəsildən hərgiz olmaz heç əsil, Lənət sənə gəlsin, pis soy, pis nəsil!** - deyərək belə insanları lənətləyir. Aşıq Ələsgər bu fikri söyləməklə, bəzən belə insanlara da rast gəlindiyini vurğulayır. Lakin qeyd etməliyik ki, bütövlükdə xalqımız zəngin mənəvi, əxlaqi dəyərlər sistemi yaratmış və bu dəyərlər xalqımızı qoruyub, bu günə qədər gəlib çıxarmışdır. Ona görə də insanlar arasında tək-tək hallarda rast gəlinən belə şəxslərin olmaması üçün onlarla aparılan tərbiyə işinin düzgün qurulması vacibdir. Hələ uşaq yaşlarından etibarən tərbiyə işinə ciddi yanaşmaq, uşaqları vətənpərvər, mübariz, qəhrəmanlıq, dövlətçiliyə sədaqət, tariximizə, mədəniyyətimizə hörmət və məhəbbət ruhunda, milli və bəşəri dəyərlər əsasında tərbiyə etməliyik. Aşıq Ələsgərin yaratdığı mənəvi irsdə belə bir çağırış var:

Hər bir insan gücü çatan işin dalınca getməlidir. Hər kəs bildiyi, bacardığı işlə məşğul olmalıdır. Məhz bu yolla insan əməyi daha faydalı ola bilər. Əks halda insanın fəaliyyəti istənilən nəticəni verməz, insanın özü də məğlubiyyət acısını yaşayar, peşiman olar, əziyyət çəkər. Bu baxımdan böyük sənətkarın aşağıda dediyi ibrətamiz fikirlər, həqiqətən əhəmiyyətlidir:

**Əlin vurma gücün çatmayan daşa,**
**Götürə bilməzsən, zora düşərsən.**

Bu fikirlərdə də dərin həqiqət vardır. İnsan yalnız özünə aid, öz gücü daxilində işlərlə məşğul olduqda daha qiymətli olur, gördüyü işlərin dəyəri də artır. Ona görə də uşaqlara, şagirdlərə tərbiyə prosesində bu fikirlər aşılanmalıdır. Şagirdlər də anlamalıdırlar ki, onların gələcək həyat və fəaliyyətində uğur hekayəsi məhz bu prinsipə nə dərəcədə əməl etməkdən çox asılıdır. Bu prinsipə əməl olunması hər bir kəsin fəaliyyətində faydalı iş əmsalının yüksəlməsinə ciddi təsir göstərir.

Aşıq Ələsgər irsində dostluq, yoldaşlıq məsələləri də mühüm yer tutur. Böyük sənətkar dostluqda sadiqliyə, sədaqətliyə, qarşılıqlı hörmətə, insan münasibətlərində mərdliyə böyük dəyər verir. Bu keyfiyyətlər mənəvi dəyər kimi insanı ucaldır, onu yer üzünün əşrəfi kimi daha da gözəlləşdirir, saflaşdırır. Ona görə də nadan adamlardan, insanlığa dəyər verməyənlərdən uzaq olmağı tövsiyə edir, onları bar verməyən söyüd ağacına bənzədir:

**Yetəni özümə mən dost eylədim,**
**Yolunda canıma çox qəsd eylədim.**
**Söyüddən bağ saldım, peyvəst eylədim,**
**Almasın, heyvasın, narın görmədim.**

Göründüyü kimi ibrətamiz fikirlərdir. Əgər dostluqdan söhbət gedərsə, orada bərabərlik, qarşılıqlı hörmət, yardımlaşma, sevincə-kədərə şərikolma, diqqət və s. kimi keyfiyyətlər olmalıdır. Şagirdlərə dostluq münasibətlərindən bəhs edərkən məhz bu keyfiyyətlərin olmasının vacibliyi əsaslandırılmalıdır.

Aşıq Ələsgər sözü də dəyər kimi yüksək qiymətləndirir. Tarixən Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmadəddin Nəsimi ənənələrini davam etdirərək sözün qədrini bilməyi, onu yersiz işlətməməyi, vaxtında deməyi, az sözlə çox məna ifadə etməyi vacib hesab edir və bunu insana xas olan mənəvi keyfiyyət kimi diqqətə çatdırır.

**“Danışdığı sözün qiymətin bilə, kəlməsindən ləlü gövhər süzülə”** - deməklə Aşıq Ələsgər sözü insan şəxsiyyətinin ən vacib xüsusiyyətlərindən biri kimi səciyyələndirir. O, qeyd edir ki, insan tənəli söz işlətməməlidir. Tənəli söz qiyamət odundan da pisdir. Eyni zamanda yeri gələndə öz sözünü deməyi, özünü müdafiə etməyi bacarmağı vacib hesab edir: Bu baxımdan aşağıdakı fikirlərə diqqət edək:

**Çox gəzmişəm, az görmüşəm danəndə,**
**Deməliyəm, sözün yeri gələndə**
**İnsan üzün görməyəsən dönəndə**
**Açılanda xoş camalı varıymış.**

Bütövlükdə Aşıq Ələsgər irsi mənəvi dəyərlərə əsasanan yaradıcılıq nümunələri ilə zəngindir.

Onun qoşmaları, gəraylıları, müxəmməsləri, dastanları məzmun etibarilə milli və bəşəri dəyərləri təcəssüm etdirən tərbiyə vasitələridir. Bu irsin elmi - pedaqoji baxımdan tədqiqi çox əhəmiyyətlidir. Böyük sənətkarın yaradıcılığı müxtəlif aspektlər üzrə elmi - pedaqoji tədqiqatlar aparmaq üçün qiymətli mənbədir. Bu yaradıcılıq Aşıq Ələsgərə məxsus olmaqla bərabər, həm də Azərbaycan xalqının mənəvi dəyər xəzinəsidir. Şagirdlərin mənəvi tərbiyəsində Aşıq Ələsgər və onun kimi görkəmli şəxsiyyətlərin irsinə müraciət olunması, onlardan tərbiyə vasitəsi kimi istifadə edilməsi müasir dövrdə vətəndaş - şəxsiyyət formalaşdırmağın mühüm yollarından biri hesab olunmalıdır.

***İntiqam CƏBRAYILOV,***
***Azərbaycan Respublikasının Təhsil İnstitutunun Təhsilin nəzəriyyəsi və tarixi şöbəsinin müdiri***
***pedaqogika elmlər doktoru,***
***professor,Turan Elmlər Akademiyasının akademiki***

# BU DİYARIN YAZARLARI: YAZIÇI ELUCA ATALININ YARADICILIĞINDAN DANIŞARKƏN...

**Mart ayının 5-də Neftçala rayon Heydər Əliyev Mərkəzinin "Uzaqdakı yaxınımız" layihəsi əhatəsində neftçalalı yazar, Stokholmda yaşayan həmyerlimiz Eluca Atalı ilə görüş təşkil edilmişdir. Görüşdə müəllimlər, yazıçılar, mədəniyyət işçiləri ilə yanaşı Bakı şəhəri və ətraf rayonlardan xeyli sayda qonaq iştirak edib.**

Eluca xanım Atalı ilə Neftçala rayon Heydər Əliyev adına Mərkəzdə təşkil edilən görüşdə ilk tanışlığımızdan sonra "Gündoğar" qəzetində haqqında ətraflı yazmaq qərarına gəldim. Bu vətənsevər xanım haqqında yazmaq isə asan deyil. Haqqında çoxlu məlumatların olması yazıçının sevdiyi oxucularına düşüncələrinin aydın işığıdır. Məqsədi, amalı, əhatə etdiyi müxtəlif mövzularla oxucuya yanaşması, eyni zamanda müxtəlif yaş qrupları olan oxucuların marağını qazana bilməsi deyərdim ki, ən böyük uğurudur. Bu uğura aparan yol isə qəlbindəki təmiz məqsəd və ona doğru inamlı qətiyyətidir.

Eluca xanım verdiyi məlumatdan sonra qəzetimizin arxivinə nəzər yetirdim. Məlum oldu ki, onun nəsrdə ilk yazılarından olan "Qarət" adlı hekayəsi çox illər bundan öncə, elə tələbə olduğu zamanda qəzetimizdə çap olunub. Deməli, "Gündoğar"ın oxucuları da elə ilk qələm nümunələrindən bu qələm sahibini tanıya biliblər.

Haqqında söhbət açdığımız Eluca xanım həmyerlimizdir. ***Qəzetimizin 2 noyabr 1991- ci il №124- cü il sayında çap edilən hekayəsində də onun adı " Mədinə Hüseynova, BDU-nin Kitabxanaçılıq fakültəsinin IV kurs tələbəsi" olaraq verilmişdir.*** Qəzetimizdə çap edilən ilk qələm nümunəsindən sonra Eluca xanım Atalı böyük bir yaradıcılıq yolu keçmiş, öz zəhməti, sevərək seçdiyi düşüncələrinin işığında nəinki rayonumuzda, respublikamızda, eyni zamanda dünyanın çox ölkəsində tanınan, sevilən yazıçılardan birinə çevrilmişdir. Bu yol isə yuxusuz gecələr, çalışmaq, fasiləsiz zəhmətin bəhrəsidir. Eluca xanım Atalı 19 noyabr 1966-cı ildə Neftçala rayonununXolqarabucaq kəndində anadan olmuşdur. Orta təhsilini kənd məktəbində başa vurduqdan sonra təhsilini davam etdirərək Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsini bitirmişdir. İsveçin paytaxtı Stokholm şəhərində yaşayan və Kärsby məktəbində çalışan yazar "Atlara güllə atmayın" "Azadlıq hekayələri", "Tiqranizm Xocalıda", kitablarının, "Qız və quzğun", "Nalşəkilli mühasirə", " Özünü gətir", "Ağ gəminin kapitanı", "Ənqa quşu" uşaq əsərlərinin,



"Adamdan üstün", "Paşa Qəlbinur: biblioqrafiyası", "Atillanın açıq pəncərəsi", "Qum üstündə sərçələr", "Milli monoloq", "Gecikmiş oyuncaq", "Bir udum azadlıq", "Kərkükülülər – təklənmiş türklər" siyasi məqalələr toplusunun, "Azərbaycanda ədəbiyyat: formalaşması, inkişafı, müasir dövrü və meylləri" adlı doktorluq işinin müəllifidir. O, xaricdə Azərbaycan ədəbiyyatının təbliği ilə fəal məşğul olur, siyasi-sosial mövzularla bağlı yaradıcılıq nümunələri ilə seçilir, tanınır.Yazıçının geniş yaradıcılıq nümunələrinin hər biri haqqında ətraflı məlumat verə bilmək imkanım məhdud olsa da, deməliyəm ki, Eluca xanım yaradıcılığında milli düşüncəmizə söykənərək ən sadə el deyimlərindən başlamış, düşmənimizin nitqindən səslənən fikirlərinə qədər milli varlığımızın təəssübkeşi olan bir xanım yazıçıdır. Haqsızlığa qarşı mübarizlik, parçalanmış vətən torpaqları, siyasi şüurun, təfəkkürün dayanmadan inkişaf etdirilməsi, bu yolda heç bir təmənna gözləmədən cəmiyyətin aydını olmaq missiyası onun həyat və fəaliyyətinin əsas qayəsidir.

Eluca xanımın yazar olaraq düşüncələrini dəyərli oxucularla bölüşmək istərdim. Çünki bu düşüncələr yəqin ki, çox oxucularımızı onun əsərlərinə yaxınlaşdıracaq, yazıçının məqsədinə nə qədər yaxın olmasını araşdırmağa sövq edəcəkdir. Eluca Atalı yazıçının cəmiyyətə təsiri mövzusunda fikirlərini belə izah etmişdir: **"Siyasətçi bildiyini, gördüyünü və edəcəyini tam çılpaqlığı ilə açıqlamağa qadir deyil. Yazarlıqda isə tam fərqlidir, özünü gizlətdikcə xalqdan uzaq düşürsən, oxucunu itirirsən və ya oxucu kütləsin qazanmırsan. Siyasətin səması çox balacadır, siyasətçi ətrafındakıları vurmasa, o səmada azad uça bilməz. Yazarınsa belə bir "ovçuluğuna" ehtiyac qalmır, çünki o həqiqətçidir, ruhaniyyatçıdır. Bu səbəbdən də onun biclik işlətməyinə ehtiyac yoxdur, onun bicliyi elə düzlüyüdür!!!"**

Bu fikirlər həmyerli yazarımızın nə qədər narahat bir qələm sahibi olduğundan xəbər verməklə yanaşı, onun mövqeyinin aynasıdır. Sözü seçərək deyə bilmək, oxucunu çox uzaqdan mənzərə yaratmaqla düşündürmək. Lakin Eluca xanım bütün əsərlərində bu üslubla deyil. Bəzən tam açıqlığı ilə də istədiyi məntiqi düşüncə ilə oxucusunu düşündürməyi bacarır. Biz bu yolu onun **"Tiqranizm Xocalıda"** kitabını oxuyarkən izləyirik. Mənfur düşmənin dilindən türk torpaqlarında olduğunu geniş və dəqiqliklə yaza bilmək bacarığı yazıçının ucalığıdır. Bu haqda Eluca Xanım fikirlərini belə ümumiləşdirir: ***"Oxucu kütləsi ədəbiyyat haqda olan elmi əsəri və ya ədəbi təhlili oxumur, onun dünyagörüşünə uyğun bədii əsəri təqdim edəndə oxuyur, təqdim etməzsən axtarıb oxumaz və ya məlumatı olmadığı hadisə barədə durub ədəbiyyat axtarmaq arzusunda olmaz. Onsuz da bu gün dünyada o qədər informasiya var ki, adam ona təqdim edilənlərin hamısını oxuya bilmir. Marağına uyğununu seçib oxuyur. Bu səbəbdən də biz tarixi dərdlərmizi və bu günümüzdə olan problemlərimizi duyğusal yox, doğru təhlillərlə xarici oxuculara çatdırmağı bacarmalıyıq. "Azadlıq hekayələri", "Bir udum azadlıq", "Tiqranizm Xocalıda" kitablarımda tariximizlə bağlı hadisələr bədii biçimin alıb. Mənə bir qədər qəribə gəldi İsveç yayınevinə əsərlərimi göndərərkən onların "Heykəllər niyə danışmır" hekayəmi seçmələri. 20 Yanvar hadisəsindən sonra bir ananın qucağında tutduğu yaralı körpəsi ilə bağlı yoldan keçən bir uşağın heykələ baxıb onunla yol gedən yetkin adamdan sorğu-sual etməsi bu hekayenin məğzini təşkil edir. İsveçlilərin bu əsəri seçməsindən sonra arayıb baxıb gördüm ki, nəinki uzaq, yaxın tariximizlə belə biz heç nəyi özümüzdən kənara sızdıra bilməmişik…"***

Eluca xanım Atalıya yaradıcılıq yollarında can sağlığı, uğurlar diləyirik. İnanırıq ki, dəyərli oxucularımız Eluca xanımın əsərləri haqqında daha geniş məlumat əldə edə bilmək üçün onun əsərlərinin oxucusu olacaqlar, dəyərli aydınımızı daha yaxından tanıyacaqlar.

**B. Niftaliyeva**

---

**"Gündoğar" qəzeti həmyerlimiz, Məsud Ənvəroğlunun rayonumuzda 60 ildən artıq Azərbaycan dili və ədəbiyyatı müəllimi işləmiş, 15 il Gecə fəhlə - gənclər məktəbinin direktoru olmuş Atası Ənvər müəllimin xatirəsinə ehtiramla yazdığı milli duyğularla dillənən Novruz ətirli ESSESİNİ sizlərə təqdim edirik:**

## Su kimi ömrünüz olsun, Dostlar!

Alo ! Aşıq .....necəsiz?
Sözüm var Sizə !
Toyda , EL şənliyində heç vaxt "Yanıq Kərəmi " ifa etmə!
Çünki kədər dolu Aşıq musiqisidir.
Əgər kimsə oyun havası bilib, rəqs etsə,
Onda ağlaya- ağlaya oynasın!
Necə deyirdi Gəray bəy:
"Çal Aşıq, çal! Komsomolun canı it canıdır!"
Əslində Şəhid oldu Məhəbbət uğrunda .
Aşıq ! Mənim üçün ustad Aşıq Pənahın bəstəsi olan "Mənim Ana Kürüm" ifa et.
Çünki bizim DƏRRÜLMÖMİN ŞƏHƏRİ SALYANIN "Vizit" musiqisidir !
Bu ifadə böyük məna daşıyır.
Kür çayı da Ana olarmış. Ona görə Anadır ki, bizim nənə, analar Kür çayının suyun içib və bizə doyunca içirdib böyüdüblər.
İgid əsgərlər veriblər Vətənə.
Kür çayının suyun içəndə Atam deyərdi: "İmam Hüseyn payından".
"Sərin su, sərvəri. İçmək istəyən gəlsin bəri!"
Bizim el- obaya çatanda, Kür çayı dolana - dolana gəlir. Salyan və kəndləri, Neftçala və kəndləri. Düz Xəzər dənizinə kimi. Elə gəlir ki, hamıya suyu çatsın .
Ana nəvazişi ilə, elə bil uşağın qucaqlayır. Sakit axan suyu insanı valeh edir .
Yadımdadı. Aşıq Pənah bu bəstəni ifa edəndə, ayaqları addım - addım hərəkət edərdi. Elə bir suyun çayda axarın göstərir. Atamın xalası oğlu olduğu üçün uşaqlıqdan tanıyıram. Ruhu şad olsun.
Mən də rəqs edəndə, elənçik( Salyanlılar "belə" demir, "elənçik" deyir ) edirəm.
İsmayıl Şıxlı "Dəli Kür" deyib bizim Ana Kürə .
Ola bilər ! Çünki Qardaş Türkiyə torpağından başlayır və şıltaq qız kimi özünü aparır. Axarı gur, sağ sahili hündür (bu Yerin saat əqrəbinin əksinə hərəkəti və yaranan mərkəzdən qaçma qüvvəsin, Koriolis qüvvəsi təsiri nəticəsidir. Bizim el- obaya çatanda, artıq yaşlaşır və özünü çox ağır, təmkinli aparır. Hələ öz balası olan Bala Kürü yönəldir. Qəhraman Maraş (indiki Marışlı) kəndinə. Gün batan tərəfə. Bu bizim Rüstəmbəyov Nəsilin özəl torpağı olub.
Ulu babam Səməd bəy və qardaşları Qarabağ at ilxısı saxlayırdılar bu torpağda.
Uşaq vaxtı babam, "Akka" deyirdik, qonaq gələndə, gedirdim Bibimgilə. Hilal müəllimin ocağına. Yaşıdlarım ilə gedirdik Bala Kürə çimməyə. Bala Kür isə bibimgilin həyətin sonunda keçir və adama gəl - gəl deyirdi.
Suyun axarı çox sürətli edi və biz çox xoşbəxt edik. Çünki su aparırdı bizi. Düz Xəzər dənizinə.
**Yaddaş ! ALLAH verdiyi çox böyük müjdə.** Nə isə...
Aşıq ! Ruhani ifa et. Elə ifa et ki, əziz olanların, uzaq - yaxın, Şəhidlərimizin Ruhu Şad olsun. İN ŞƏƏ ALLAH!
Mənim Ana Kürüm, gözəl axarı olan Kürüm,
Suyunu içib, igidlər, qız - gəlinlər böyüdün
Sənə tay varmı bu dünyada?
Hətta dəfn edib, su tökərlər torpaq üstə.
Uzaq yola çıxana, su tökərlər dalınca…
Uşağı sakitləşdirmək üçün, ciyəri yanana Bir qurtum su verərlər.
Hələ dəmlənmiş çayın dadı,
Bulanıq olsa da, "Lıkka" deyərlər biz tərəfdə.
Tez bir zamanda durular, çoxlu mineral tər...



Kür çayın Qızıl balığı, Şahmayısı, Ziyadı, Xəşəmi, İlan balığı dadına söz ola bilməz .
Suyun tərkibi ayrı - ayrılıqda bir partlayış $H_2O$ - bir yerdə Ürəyə məlhəm
Suların Şahı Zəm-Zəm, bir damcısı düşsə Kür çayı suyuna - olar Zəm-Zəm.
Nurş olsun !
"Sərin su sərvəri. İçən ! Gəlsin bəri!"
Su kimi Ömrünüz olsun, Dostlar

**Məs'ud Ənvər oğlu Rüstəmbəyov**
**ADTU-nin müəllimi,**
**Qəhraman Maraşlı**
**9 mart, 2024-cü ilin saat 01.47**

# HƏLƏ DEMƏDİYİM SÖZƏ BAĞIŞLA...

**Neftçalanın dəyərli söz adamı, yazıçı - publisist, şair ZAUR ƏRMUĞANIN "Tanrı payı" şeirlər kitabı haqqında düşüncələrimdən...**

-------------------------------------------

**"...Bir daş sükutum var, dinər, söz doğar,**
**Göz yaşım damcılar, damlam köz doğar,**
**Yol mənim yolumdur, məndən iz doğar,**
**Bir zirvə ucaldar: - Şeir, şeir yaz!.."**
**("Şeir yaz" şeirindən)**

Poeziya haqqında çox deyilib, çox da yazılıb. Hər kəsin öz düşüncəsi olan bu yol haqqında nəsə demək istəyiriksə, bu, əlbəttə ki, yeni söz olacaqdır. Çünki hər bir insanın baxışı fərqlidir. Duya bildiyi qədər görər, görə bildiyi qədər dərk edər...

Poetik dillə şairin oxucuya təqdim etdiyi sərvəti ruhun pərvazlandığı, əqlin süzgəcindən keçərək demək istədiyi gözəllik məhz ən ali duyğulardır. Şair onu əzizləyərək, ilmə-ilmə toxuyaraq, bəzən zərif gül ləçəkləri ilə pərdələyərək təqdim edir. Bu zəriflik çəkir qəlbi, bu gözəllik yaşadır qələmi, düşündürür oxucunu, ucaldır qələm adamını.

İnsan duyğular toplusudur. Bu duyğuların ən zərifi, ən yüksəyi insanlığa xidmət edən poeziyada əks olunursa, milyon-milyon könüllərə yoldaş olur, sirdaş olur. Poeziya insanı sabaha səsləyir, düşündürür, düşüncənin qanadında uzaqlara aparır, öz dünyasına yaxınlaşaraq apardığı uzaqlıqda yaşadır insanı. Bu zərifliyi içində saxlaya bilməyən qələm sahibi sanki oxucusu ilə əl-ələ tutaraq ruhun özünün hiss edə biləcəyi ən gözəl çalarlarla mənzərə yaradır, onun sakini olur, orada qalır, yazır, dönüb yenidən baxır və bir qəsr ucalda bilən memar timsalı zövq alır.

Bəli, sənətkar yaratdığından zövq almırsa, demək ki, duyğuları onu çoxdan tərk etmişdir. Əziz oxucularım razılaşmayacaq, yəqin ki. Duyğusuz da söz yazılarmı?.. bu bir başqa mövzu...

Bu gün sözü dəyərli bilən oxucularımıza bütün qəlbi ilə yaradıcılığa bağlı, sözün sehrində dalğalar qoynunda yaşayırmış kimi görə bildiyim yazıçı-publisist, şair, dəyərli qələm sahibi Zaur Ərmuğanın yeni çap olunan "Tanrı payı" kitabından danışacaq, bu saf duyğulu söz sərrafının duyğu selinə qoşulacağıq. Bu duyğular bahar yağışı kimidir, hər misranın arxasından günəşin al şəfəqlərini duyursan, ümid səni tərk etmir, kövrək duyğulara sanki sığal çəkərək həyata davam deyirsən.

"Tanrı payı" şeirlər kitabı "Günəş ömrü istəyirəm" şeirlər kitabından sonra şair Zaur Ərmuğanın ikinci kitabıdır. Kitab 2023-cü ildə "Elm və təhsil" nəşriyyatında çap edilmişdir.

Poeziyaya, ümumiyyətlə, ədəbiyyata bütün qəlbi ilə bağlı olan Zaur müəllimin şeirlərini oxuduqca sanki saf bulaq suyunu ovcuna alıb içən insanı xatırlayırsan. İnsan ruhu bu qədər durulur, içində saflıq, sərinlik hiss edir.

Oxucularımızı "Tanrı payı"- nın dünyasına səyahətə dəvət edirəm, onu duymağa səsləyirəm. Şair Zaur Ərmuğan sinif otağında şagirdlərini ümid və inamla elmə, həyata səsləyən dəyərli müəllim olduğu qədər, hər bir oxucusunun da mənəvi xeyirxahı olaraq onlara qayğı göstərir. Onları qələminin nuru ilə işıqlanan misralarında həyatı görməyə, doğrunu yanlışdan seçməyə, dünyanı olduğu kimi dərk etməyə səsləyir:

**"...Çölüm, dağım, daşımdır,**
**Ruhumdur, yaddaşımdır,**
**Məzarım, başdaşımdır,**
**Göyüm, yerimdir Vətən".**
**("Vətən" şerindən)**

və yaxud:

**"...Oğullar zəfərlər çaldığı yerdə,**
**Müqəddəs bir qisas aldığı yerdə,**
**Şəhid məzarının olduğu yerdə**
**Vətən çiçək açır tər gülləriylə".**
**("Müqəddəs qisas" şerindən)**

Əbədi düşüncəmizdə heç zaman solmayan Vətən anlamını bu bənd bütün çalarlarıyla təqdim edir. Ruhumuza hopan anların yaddaş tarixini vərəqləyərək bizdən sonra qalan baş daşımıza qədər, ondan sonra da sadəcə torpağının bir parçası olduğumuz vətən torpağına qədər. Bu yerdə deyərdim ki, bəzən sadəlikdə o qədər möhtəşəmlik yaşayır ki, onun verdiyini heç nə qopara bilməz. Bu misralardakı vətən anlamını duya bilən üçün...şəhadəti görə bilənlər üçün.

**"Tanrı payı"** şeirlər kitabı **"Vətən evimdir mənim", "Bir sevgi duası yazılıb ömrə", "Quşlar yuva qurub bir dar koğuşda", "Dünyanın sirrini bilməyib kimsə", "Torpağı ucaldan şəhid"** başlıqları ilə beş hissəyə bölünüb.

Şair Zaur Ərmuğanın **"Tanrı payı"** şerini izləyir, sözün səmimiyyətini aydın duyuruq:

**"...Bu eşq işığına könlüm duaçı,**
**Boynumdan asmışam günahlarımı.**
**Gülüm, gəl bağışla sevgi xətrinə,**
**Mən girov qoymuşam sabahlarımı.**

**... Gülüm, gəl bağışla, bağışla məni,**
**Odunda yandığım közə bağışla.**
**Qəlbində min bir yol əzizlədiyin**
**Hələ demədiyin sözə bağışla... "**

İnsan qəlbinin idarəolunmaz səmasından yenə eşqi seyr edirik **"Eşqin"** şerində:

**"...Bir gülüş məlhəmdir sinə dağıma,**
**Taleyim əl tuta dilsiz çağıma.**
**Xəzan xəzəl-xəzəl düşüb bağıma,**
**Baharı gülündə soldu bir eşqin..."**

**"Özünü məndən qoparma"** şerində yenə oxucu saf duyğuların etirafını izləyir :

**"...Göyümdən danı aparma,**
**Sevdiyim anı aparma.**
**Özünü məndən qoparma,**
**Bu tale Tanrı qisməti".**

El dilində olan **"Göz ürəyin aynasıdır!"** ifadəsi şairin **"Qoy oxusun gözlərini gözlərim"** şerində yeni bir formada çıxır qarşımıza. Gözlərin insan duyğusunu bir güzgü kimi əks etdirməsini şair poetik dillə izah etməyə çalışmışdır:

**"... Ümid dinir, güman dinir gözündə,**
**Sükut dolu ümman dinir gözündə,**
**Bir gerçəyi uman dinir gözündə,**
**Qoy oxusun gözlərini gözlərim.**

**Kirpiyinin kölgəsimi gizlənən?**
**Yad baxışla özgəsimi gizlənən?**
**Bəlkə, mənəm öz – özüylə izlənən?**
**Qoy oxusun gözlərini gözlərim..."**

"Ürəyimə" şerində isə eşq iztirablarını aşiqin dilində ilğım atəşində görürük:

**"... Bir gileyin min davası,**
**Bir talanam, eşq yuvası,**
**Köklənmişəm, var havası,**
**Dəmi yığdım ürəyimə..."**

Şairin şeirlərində bədii təsvir və ifadə vasitələrinin dəqiqliklə işlənməsi, fikrin bədii şəkildə oxucuya çatdırılmasında əhəmiyyətli rol oynayır. Belə ki, **"ümid dinir", "güman dinir"** metaforları, **"Uşaq kimi dəcəl, kövrək, Xəyallarım, xəyallarım", Qış ömründə yaz yamacı- Xəyallarım, xəyallarım"** təşbehləri, **"Qəşəngdir lalənin al qızıl tacı"** epiteti və digər bir belə bədii nümunələr öz poetikliyi ilə seçilir və müəllifin əksər şeirlərində bu cür parçalara, söz və ifadələrə rast gəlmək olur.

Şair Zaur Ərmuğanın gözəllik anlamını **"Gözəl olur"** şerinin misralarında gəzirik.:

**"Ulduzlu gecənin öz yaraşığı,**
**Üfüqdə qızaran gün gözəl olur..."**
**və ya**
**"Ruhun dincəlməyə var ehtiyacı,**
**Qəşəngdir lalənin al qızıl tacı..."**

Şair ürəyinə qüvvət verən duyğuların ünvanı isə sonsuz xəyallardır. **"Xəyallarım"** şerindən hansı bəndi seçim deyə çox düşündüm. Nəhayətdə, az hissəsini ixtisarla çatdırıram dəyərli oxuculara. İnsanın özünəməxsus xəyal dünyasının ritmləri doğmadır hər birimizə:




**"Əllərimdən tutan əldir,**
**Ürəyimdə suzmaz dildir,**
**Göy üzündə bitən güldür**
**Xəyallarım, xəyallarım".**

**"Gözlərimdə rəngli gerçək,**
**Qəhərlənər məni görcək.**
**Uşaq kimi dəcəl, kövrək**
**Xəyallarım, xəyallarım".**

**"...Gah şirindir, gah da acı,**
**Həsrətimin tək əlacı!**
**Qış ömründə yaz yamacı ---**
**Xəyallarım, xəyallarım".**

**"Öz dünyamın qonağıdır,**
**İçimdə ruh bulağıdır,**
**Məndə bir mən sorağıdır**
**Xəyallarım, xəyallarım."**

Şair Zaur Ərmuğanın insanlığa xidmətidir yaşatmaq amalı, dözüm, ümid işığına səsləmək, fanilik içində əbədi yaddaşa xidmət edən dəyərlərə xidmət etmək missiyası. **"Ömür yaşat, de sözünü"** şerindən:

**"Büdrəsən də qalx ayağa,**
**Vurma yerə tez dizini.**
**Dünya budur, həyat belə,**
**İpəyindən seç bezini".**

**"...Sinəni heç oyma nahaq,**
**Ürəyinə qıyma nahaq,**
**Vədəsinə uyma nahaq,**
**Çox bozardıb tərs üzünü..."**

**"Pay gözləmə bağçasından,**
**Vəfa umma axçasından,**
**Pisi ayır yaxşısından,**
**Əyrisindən həm düzünü ".**

Həyatın qarşımıza çıxardığı üzüntülərə qarşı etiraz edən şairi **"Allah, burdan devir məni"** şerində daha sərt şəkildə gileyli görürük. Bu qəm cəmiyyətimizdə dərdli insanların sanki ümumiləşdirilmiş bir etirazıdır. Kədərdən üzülən, boğulan insanın harayıdır, Tanrıdan imdadıdır...

**" Hər ahım bir anı üzür,**
**Nəfəs-nəfəs əriyirəm.**
**Dərddən təzə dərd doğulur,**
**Dərdi dərdə dirəyirəm".**

**"...Dərd məhbəsdir, qəlb əsiri,**
**Bitməz vaxtın kəm-kəsiri.**
**Neyləyir dərd mən yesiri?!**
**Ayaq üstə çürüyürəm..."**

**"...Soruşmayın bu nə haldır?**
**Bu nə vaydır, nə məlaldır?**
**Könlüm dolu, dilim laldır.**
**Kilidlənib kiriyirəm..."**

İnsanın taleyinin fərqli yolları, sevinc, kədər, sədaqət, mərdlik, bəzən çətinliklər qarşısında qətiyyət, bəzən yorğunluq **"Taleyim"** şerində də məzmunlu ifadə olunmuşdur:

"...**Yoxam belə, varam belə,**
**Sirlə dolu naram belə!**
**Yar deyənə yaram belə,**
**Bircə yarın yarasıyam..."**

**"...Əridəcək fikir məni,**
**Dağdan-dağa çəkir məni.**
**Zaur, dərdim bükür məni,**
**Nə əlac, nə çarəsiyəm".**

Şair **Zaur Ərmuğanın** kitabda yer alan **"Dünya", "Qonağam", "Dolanaq, dünya", "Aldanmışam yalanına ömrümün"** şeirlərində də həyat gerçəklərinə şair baxışının özünəməxsus çalarlarını görürüki:

**"...Vədələri yalan imiş,**
**Bəxtimiz nə ağır imiş?!**
**Gör bir necə cığal imiş,**
**Sözündən çıxıbdır dünya.**
***("Dünya" şerindən)***

**"Dünya dərin bir dəryadır,**
**Toruna düşən balığam.**
**Yeri, göyü də səhradır,**
**Yolundan keçən çarığam..."**
***("Qonağam" şerindən)***

**"...Ey davakar dünya, mən ki, barışdım,**
**Ver, çəkim dərdini, burdayam hələ.**
**Sənə dözə-dözə elə alışdım,**
**Enişdə, yoxuşda, yoldayam hələ..."**
***("Dolanaq, dünya" şerindən)***

**"...Eləsi nə, beləsi nə dünyanın?**
**Mən də düşdüm tələsinə dünyanın.**
**Çiyin oldum şələsinə dünyanın,**
**Aldanmışam yalanına ömrümün... "**
***("Aldanmışam yalanına ömrümün")***

Cəmiyyətimizdə ən humanist, şərəfli peşəsi ilə xalqa, dövlətə xidmət edən şair Zaur Ərmuğan seçdiyi müəllimlik peşəsinin də, söz sənətinin də ən şərəfli pilləsindədir. Bu yol isə insan şəxsiyyətini kamilləşdirən zəhmət yoludur, fədakarlıqla dolu...

**"Zirvəyə gedən yol hamar ki deyil,**
**Daşlı-kəsəklidir, yüz yarğanı var.**
**Səni aldatmasın yaz günəşi, bil,**
**Qışın fırtınası, sərt tufanı var..."**
***("Zirvə" şerindən)***

misralarının müəllifi şair Zaur Ərmuğan ***"Şair tanıyıram"*** şerini qocaman şairimiz **Soltan Abbasa** həsr etmiş, ustad sənətkarımızı belə dəyərləndirmişdir:

**"...Baxışı mənalı, duyğusu təzə,**
**Ürək yox, günəşdir sinəsindəki.**
**Deyir, səhərlərdir zülməti qovan,**
**Var olsun bu dünya, bir sevda təki..."**

**"...Şair tanıyıram, gözəl bir şair,**
**Təbini həmişə qüdrətdən alır.**
**Mən şair görmüşəm, zövqü səfanı**
**Xalqa sədaqətlə xidmətdən alır..."**

İnanıram ki, şair Zaur Ərmuğanın "Tanrı payı" kitabı onun səhifələrini izləyən, adını soraqlayan hər bir oxucumuz üçün maraqlı poeziya çələngi olacaq, verdiyi dəyərlə yadda qalacaqdır.

Zaur müəllimə söz mülkümüzün zənginləşməsində daim uğurlar, ailəsi ilə birlikdə can sağlığı, xoş günlər diləyir, "Tanrı payı"nız hər zaman ucalığa doğru olsun!"- deyirik.

***Bədirə Rza Həsənqızı***

GÜNDOĞAR

**Neftçala rayon Heydər Əliyev Mərkəzində Novruz bayramı ilə əlaqədar "Səməni, saxla məni" adlı tədbir keçirilib. Tədbirdə Neftçala rayon Samid İmanov adına 1 saylı tam orta məktəbin hazırlıq(sıfırıncı) və dördüncü sinif şagirdləri iştirak ediblər. Şagirdlər maraqlı kompozisiya və səhnəciklərlə çıxış ediblər. Tədbirin təşkilatçısı ibtidai sinif müəllimi, hər zaman şagirdlərinin istedad və bacarığına görə seçilən, zəhmətkeş müəllim Aybəniz Sailovaya Mərkəz kollektivi adından təşəkkür edirik!**

*Novruz mətləbini versin!*
*Novruz gülünə dönəsən!*
*Novruz payı yeyəsən!*
*Novruza niyaz eləyəsən!*
*Novruz üzünə gülsün!*
*Novruzda bəxtin açılsın!*
*Novruz falın uğurlu olsun!*
*Novruz xonçan düşərli olsun!*
*Novruz köməyin olsun!*
*Ürəyin Novruz qədər qutlu olsun!*



**29 mart 2024-cü il tarixində Neftçala Rayon İcra Hakimiyyəti Aparatında "Bələdiyyələrdə gender bərabərliyi siyasətinin həyata keçirilməsinə dair praktiki tövsiyələr" mövzusunda tədbir təşkil olunmuşdur. Tədbirdə bələdiyyələrdə yaradılmış Gender Komissiyalarının fəaliyyət istiqamətləri, iş prinsipləri və struktur məsələləri müzakirə olundu.**



## ELAN

**Bildirilir ki, Neftçala rayon Xol Qaraqaşlı kənd Həyat Sudan İstifadəedənlər Birliyinin 05 Mart 2024 - cü il tarixli növbədənkənar ümumi yığıncağının Protokol №01 - in qərarına əsasən, Neftçala rayon Xol Qaraqaşlı kənd İ. Ə.D. Nümayəndəliyində fəaliyyət göstərən Qaraqaşlı SİB -i qoşulma prinsipi əsasında həmin ərazidə fəaliyyət göstərən Həyat SİB - nə birləşdirilmişdir.**

## ELAN

**Bildirilir ki, 7 mart 2024 – cü tarixdə Neftçala rayon Xol Qarabucaq kənd Muğan Sudan İstifadəedənlər Birliyinin növbədənkənar ümumi yığıncağının Protokol №01 -in qərarına əsasən, Neftçala rayon Xol Qarabucaq kənd İ.Ə.D. Nümayəndəliyində fəaliyyət göstərən Akkuşa SİB-i qoşulma pirinsipi əsasında Muğan SİB - nə birləşdirilmişdir.**

## ELAN

**HÖRMƏTLİ HƏMVƏTƏNLƏR!**

**"GÜNDOĞAR" QƏZETİ BİLDİRİR Kİ, ŞƏHİD ANASI MƏHƏRRƏMOVA XOŞQƏDƏM HÜSEYNBALA QIZINA VERİLƏN "ŞƏHİD ANASI" VƏSİQƏSİ İTMİŞDİR. VƏSİQƏNİ TAPAN ŞƏXSDƏN REDAKSİYAMIZLA ƏLAQƏ SAXLAMASI XAHİŞ EDİLİR.**

*Cəfər Cabbarlı -- "Ana"*

*Əgər bütün bəşəriyyət ədüvvi-canım ola,*
*Ürək süqut eləməz aldığı mətanətdən.*
*Ricavü xəvfə məkan verməram gər alimlər*
*Min il də vəz edələr dəhşəti-qiyamətdən.*

*Pələnglər tuta dövrüm, çəkinmərəm haşa,*
*Və ya ki, vəd edələr dövləti-cahanı mənə*
*Ki, bir kəsə baş əyib əczimi bəyan eləyim,*
*Əyilmərəm nə ki yer, versələr səmanı genə.*

*Yanımda gər dura cəllad əlində şəmşiri,*
*Ölüm gücilə mənə hökm edə olum təslim,*
*Əyilmərəm yenə haşa! Ölüm nədir ki, onun*
*Gücilə xalqa həqiranə eyləyim təzim?*

*Cahanda yox elə bir qüvvə baş əyim ona mən,*
*Fəqət nə güclü, zəif bir vücud var, yahu,*
*Ki, hazıram yıxılıb xaki-payinə hər gün,*
*Öpüm ayağını əcz ilə. Kimdir o? Nədir o?*

*Ana! Ana!.. O adın qarşısında bir qul tək*
*Həmişə səcdədə olmaq mənə fəxarətdir,*
*Onun əliylə bala bəhrinə yuvarlansam,*
*Yenə xəyal edərəm bəzmi-istirahətdir.*

*Əs, ey külək, bağır, ey bəhri-biaman, ləpələn!*
*Atıl cahana sən, ey ildırım, alış, parla!*
*Gurulda, taqi-səmavi, gurulda, çatla, dağıl!*
*Sən, ey günəş, yağışın yağdır, ey bulud, ağla!*

*Bunlar mənə əsər eylərmi ? Mütləqa yox! Yox!- Yox!!!*
*Fəqət Ana! O müqəddəs adın qabağında-*
*O pak bağrına bassın məni, desin layla,*
*Təbəssüm oynadaraq titrəyən dodağında.*

*Bütün vücudum əsər, ruhum eyləyər pərvaz,*
*Uçar səmalara o, aləmi-xəyalətdə.*
*Yatar, ölər bədənim, nitqdən düşər bir söz:*
*-Ana… Ana… Sənə mən rahibəm itaətdə!..*

*Aman… Aman!... Bu müqəddəs vücudu mümkünmü*
*Ki, bir taqım canavar zülmnən şikar eləsin?!*
*Yıxıb da xaki-rəzalətdə, tapdayıb əzərək,*
*Ayaqlar altına torpaq kibi nisar eləsin?!*

*Zəlilü-xar edərək məhbəsi-əsarətdə,*
*O şanlı qollarına zülmünən vurar zəncir.*
*Niyə? Neçin? Hanı vicdan? Hanı ədalət bəs?*
*Neçin də parlayıb etməz cahanı bir tənvir?*

*Aləmi, ədl-ədalət üzüldü dünyadən,*
*Neçin nəsibim edibsən bu zülm - dövranı.*
*Ey asiman, dağıl, ey zöhrələr axın, tökülün,*
*Ki, aləmi-bəşəriyyət unutdu vicdanı.*

**ABUNƏ OL, BİRLİKDƏ YAŞADAQ!**

**Baş redaktor**
B.H. NİFTALİYEVA

ÜNVAN:Neftçala şəhəri, H. Əliyev prospekti 38
Telefon:(021) 26-3-44-03
VÖEN:6500044671
AZ95AIIB33080019446400258164

Qəzet "Gündoğar"ın redaksiyasında yığılıb, səhifələnib, "AZƏRMedia" mətbəəsində çap olunmuşdur. Tiraj:250